### 1.Sözdən əvvəl söz

Ulduz Qasım Moskvada yaşasa da, Azərbaycanla nəfəs alan, Qarabağ ağrılarını varlığında daşıyan sənətkardır. Onun söz dünyası yalnız vətənlə bağlı həqiqətlərin yazıçı düşüncəsindən keçməsi ilə ifadə olunur. Görünür, həqiqətlərə bir az kənardan baxmaq daha əzablıdır. *"Kənardan"* sözü burada yadlıq, ögeylik mənasında deyil, məkan, məsafə baxımından başa düşülməlidir.

Uzun illərdən bəri, hətta vətənlə bağlı ağrılı hadisələrin baş verməsində əsas günahkar bildiyimiz Rusiyada və onun paytaxtında yaşasa da, Asif Ata demişkən, vətənçilik hissinə sədaqəti ilə böyüyən, yaşa dolan bir sənətkardır. Burada da söhbət insan yaşından yox, yazıçı yaşından gedir. Həqiqətən, Ulduz Qasım qərinədən çox illəri vətənə kənardan baxmaqla yaşamaq əzabını, ağrısını sözə çevirməyi özünün kredosu bilib. Ulduz Qasımın yaradıcılıq taleyi əsasən Qarabağla bağlıdır. Qarabağ onun baş mövzusudur. Sözünü hara çəksə belə yenə gəlib Qarabağ məkanında həqiqətinə çatır.

Sənətkarın yaradıcılıq yolunu izlədikcə onun necə söz ağrıları ilə yaşadığını artıq müşahidə etmişik. Sözün həqiqi mənasında, can ağrısı ilə, ürək yangısı ilə qələmə aldığı əsərlərinin adlarını bir daha sadalamağa lüzum görmürük.

Ulduzun Qarabağ mövzusunda yazılmış əsərlərinin hər biri onun yaradıcılığı üçün ayrıca mərhələ təşkil edir. Dünya ədəbiyyatında elə sənətkarlar var ki, (Balzak, Jül Vern və s.) onların yazdıqları, demək olar ki, biri digərinin *lar əsasında bədii şəkildə salnaməloşdirilib".* Bu kifayət qədər dolğun məlumatdır. Hətta yazıçının öncəgörmə hissinin, qələbəyə inamının təsiri ilə yazılmağa başlanılmış bir əsərdir. Roman adından da göründüyü kimi, Azərbaycan ordusunun Qarabağda düşmənə qiyaməti göstərən hünərindən bəhs edilir.

Ulduz Qasımın yaradıcılığı Azərbaycan ziyalıları tərəfindən həmişə yüksək rəğbətlə qarşılanıb. Onun əsərlərində insan iztirablarının sonsuzluğuna qədər əzabverici mahiyyəti üzə çıxır. Tahir Aydınoğlu da Ulduz Qasımın yaradıcılığını bilən ziyalılarımızdandır. O, Əməkdar jurnalist, *"Həsən bəy Zərdabi"* və *"Ali media"* mükafatçısıdır. Görkəmli publisistdir. Demək, sözün mahiyyətini bilmək sarıdan kifayət qədər hazırlıqlıdır. Və hər hansı bir əsər haqqında söz demək məsuliyyətinin də nə demək olduğunu yaxşı bilir. O, *"Qarabağda qiyamət"* romanına *"Qarabağ zəfərinin bədii salnaməsi"* adlı *"ön söz"* yazıb. Doğrudur, yazıçının əsərlə bağlı düşüncələrinə varmazdan əvvəl, ümumiyyətlə, Qarabağın Azərbaycan xalqının taleyində nə demək olduğuna işıq tutmağı vacib hesab edir: *"Hər tarix öz ədəbiyyatını yaratdığı kimi, hər ədəbiyyat da öz dövrünün bədii tarixini yaradır. Artıq zamanın arxivinə atılmış Qarabağ münaqişəsi 30 il mövcudluğu dövründə öz ədəbiyyatını ərsəyə gətirdi. Bu ədəbiyyat tarixlərdən keçib gəlmiş "Yaddan çıxmaz Qarabağ!" həqiqətini yeni forma və məzmunda göyərdərək 30 ildən sonra Qarabağı azad edəcək bütöv bir nəsli tərbiyələndirib mübarizə üçün yetişdirdi".* Doğru deyir, həqiqətən, Qarabağı erməni faşistlərinin işğalından azad edən məhz istiqlal *sayıla biləcək "Qarabağda qiyamət" adlı romanı, demək olar ki, savaşın ilk günlərindən başlayıb qələbədən 72 gün sonra tamamlaması nadir bədii hadisə sayıla bilər. Əslində, Ulduz xanım bu romana qədər "Mən aşiqəm Qarabağda", "Xocalı şikəstəsi", "Qürbət zöhrəsi", "Solmayan Nərgiz", "Ağ göyərçinlər" kimi irihəcmli əsərləri ilə birlikdə uzun bir yaradıcılıq yolu keçmiş, estetik imkanlarını qalibiyyətli müharibənin bədii mənzərəsinin yaradılmasına tam hazır vəziyyətə gətirmişdir. Onun II Qarabağ müharibəsindən 2 ay əvvəl yazıb tamamladığı "Ağ göyərçinlər" romanı torpaqlarımızın azad edilməsi üçün müqəddəs bir savaşa Ulu Yaradandan alınan icazə və xeyir-duanın bədii ifadəsi olmuşdu".* Bütün hallarda sadalanan faktlar bütöv bir qərinəni - Qarabağ həsrətini canıyla, varlığıyla yaşamış olan sənətkarın böyük zəhmətindən xəbər verir.

Nəhayət, *"ön söz"*ün müəllifi *"Qarabağda qiyamət"* əsəri ilə bağlı düşüncələrinə də yer ayırır. Axı bizə məlumdur ki, ildırım sürətli qələbə savaşını Azərbaycan ordusu necə cəsarətlə və şücayətlə başa çatdırdı. Bu müharibə Azərbaycan ordusunun təkcə qüdrətindən yox, həm də şərəfli savaşının çox böyük miqyasından xəbər verirdi. T.Aydınoğlu da oxucu diqqətinə *"Qarabağda qiyamət"* əsərində tarix üçün əks-səda kimi yaşayan hadisələrin möhtəşəmliyindən danışır: *"Qarabağda qiyamət" romanını isə müəllif Vətən müharibəsindən ölkəmizdə və dünyada yaratdığı geniş əks-sədanın sənədli mənzərəsini bədii təəssürata çevirmək yolu ilə, təxminən, 4 aya hasilə gətirmişdir. Romanın personajları bağça "30 il yurd həsrəti ilə yaşamış məcburi köçkün ailələrinin övladlarını və Qarabağın xilası ruhunda tərbiyələnmiş gəncliyi cəbhələrin ön xətlərində, sirli bir məharətlə düşmənin içərilərinə və arxasına sızmış mövqelərdə görürük. Birinci Qarabağ savaşının bir çox təcrübəli döyüşçüləri də düşmənlə üzbəüz mübarizədən keçib gedir. Vətən müharibəsinin bir çox xüsusi hünər göstərmiş fədailəri əsərdə öz adları, şücayətləri ilə və əlbəttə, bədii ümumiləşdirmə və tipikləşdirmə süzgəcindən keçirilməklə yer alıblar. Yazıçı öz personajlarını bir-biri ilə canlı dialoqlarla danışdırsa da, onların daxili aləmini - qələbəyə qəti inamlarını və düşmənə sonsuz nifrətlərini daxili monoloqlarla təqdim etmişdir".* Yeri gəlmişkən, buradaca qeyd edək ki, Tahir Aydınoğlu da Ulduz Qasımın daxili monoloqlar sarıdan gücünü müşahidə edib. Yazıçının qəhrəmanları bütün situasiyalarda daxili aləmlərinə müraciət edir, hisslərini, duyğularını səssiz düşüncələrlə bildirirlər. Əlbəttə, bu, yazıçının istedadının nəticəsidir. Yazıçı insanı nə qədər dərindən anlayırsa, daha doğrusu, qəhrəmanın taleyi ilə nə qədər yaxından yaşayırsa, bir o qədər daxili monoloqlarda həssaslıq göstərə bilir.

*"Ön söz"*ün müəllifi yazır: *"Əsərdə təsvir olunan hadisələr müharibə xronologiyasına uyğun olaraq, Arazqırağı məntəqələrdən Murovdağ yüksəkliklərinə qədər döyüşlərin getdiyi hər yerdə, eləcə də arxa cəbhənin müxtəlif ünvanlarında davam etsə də, eyni məram və hədəfə yönlənmişdir: düşməni əzmək, Qarabağı 30 illik əsarətdən xilas etmək! Ona görə də bütün epizodlar vahid bir süjetin tərkib hissəsi təsiri bağışlayır. Müharibənin bizə bəlli sənədli xronikasında hamımızı heyrətə salıb mənəvi cəhətdən möhkəmləndirmiş gerçəklər - yaralı əsgərlərin hospitaldan döyüş yoldaşlarının yanına qaçmaları, anaların, gəlinlərin, nişanlıların doğma şəhidlərin tabutlarının altına girmələri, gənclərin orduya getmək üçün səfərbərlik qurumlarında az qala "davaya" çıxmaları, əsgər və zabitlərin bir-birini xilas etmək üçün ölümə sinə gərmələri, düşmən mərmisi ilə evləri dağılanların "Təki vətən sağ olsun!" deməsi kimi hadisə və faktlar hər sətirindən alov, fəlakət qopan, qan sızan bu romanın da həyəcan və öyüncələ oxunan səhifələridir".* *İnanırıq ki, Qarabağ münaqişəsi və müharibəsi mövzusunda silsilə bədii əsərlər yazmış yurd sevər soydaşımız Ulduz Qasımın bu çoxillik mübarizənin zəfər zirvəsi olmuş Vətən müharibəsinin ilk irihəcmli bədii salnaməsi "Qarabağda qiyamət" romanının ayağı sayalı olacaq, milli ədəbiyyatımız bu mövzunu yeni nəsr əsərləri ilə zənginləşdirəcək. Roman bu sözlərlə bitir: "Şuşanın azadlığından bir gün sonra ətraf rayonlardan bir neçə yaşayış məntəqələri azad olundu, döyüşçülərimiz Xankəndiyə çatdılar... Və sonra..."*. Müəllif əsərin oxucuda buraxdığı təsiri kifayət qədər yazıya gətirib. Hətta Azərbaycan əsgərinin əsərdə necə bir məğlubedilməzlik obrazı olduğunu da müəyyən qədər ifadə edə bilib.

Tahir Aydınoğlu yazıçının *"və sonra"* ifadəsinə də diqqət yetirir: *"Gəlin, bu yarımçıq cümlənin davamını müəllifin yeni əsərində gözləyək".*

Ulduz Qasım xoşbəxt taleli sənətkardır. Bütün qaranlıqlardan keçərək həyatın işığına çıxa bilib. Həm əsərlərindəki arzulanan həyatın işığına, həm də şəxsi taleyindəki dumanlıqların aydınlığına.

Öz dövründə, zamanında qəhrəmanlarının qələbəsini görmək həqiqətən xoşbəxtlikdir.

# VII. "QARABAĞDA QİYAMƏT"İN SONU

davamıdır. Dünyanın fikir arenasında müharibə mövzusu həmişə əsas olub. E.Heminqueyin *"Əlvida silah"*, A.Çakovskinin *"Müharibə"*, Əbülhəsənin *"Müharibə"* və digər çoxsaylı əsərlərin adlarını sadalamaq olar. Əlbəttə, Lev Tolstoyun *"Hərb və sülh"* əsəri də ələhiddə bir məkan tutur. Bir sözlə, bütün təfəkkür sahibləri yaratdıqları əsərləri müharibənin nə demək olduğunu insanlara başa salmaq, ümumiyyətlə, insanlığı müharibə bəlasından qorumaq niyyəti ilə qələmə alıblar.

Məşhur bir kino da var; *"Xoş qədəmin olsun"*. Filmin sonuna yaxın qələbə xəbəri ilə eyni vaxtda bir körpə dünyaya gəlir. Oğlan uşağıdır. Filmin sonunda rejissor belə bir epizod verir. Uşaq gərəksiz əşyaya çevrilmiş olan silahların üstünə siyir. Əgər dünya bunun ən üstün hökm olduğunu qəbul eləsəydi, onda bəşər nəslinin qanı yer üzünə ac niyyətlər, qəsbkarlıqlar üçün tökülməzdi.

Ulduz Qasım da özü üçün Qarabağ mövzusunu, demək, Qarabağ uğrunda müharibə mövzusunu davam etdirir. Bu mövzu onun üçün, görünür, hələ gələcəkdə də yaşarı olacaq. Beləliklə, biz bütün varlığı ilə Qarabağ həqiqətlərini dünyaya car çəkmək istəyən yazıçının yeni əsəri ilə üz-üzəyik: *"Qarabağda qiyamət"* romanı. Əsərin annotasiyasında yazılır: *"Moskva şəhərində yaşayan tanınmış yazıçı-publisist Ulduz Qasımın Qarabağ münaqişəsi mövzusunda silsilə kitablarının davamı olan "Qarabağda qiyamət" romanı Vətən müharibəsinə həsr olunmuş ilk irihəcmli əsərdir. Müəllifin II Qarabağ savaşının ilk günlərindən qələmə almağa başlayıb, tarixi zəfərdən 72 gün sonra tamamladığı bu əsərdə Azərbaycan xalqının qarşısıalınmaz qələbə əzmi və döyüşçülərimizin misilsiz qəhrəmanlığı sənədli material-* məktəbində, Azərbaycanın müstəqillik qazanmasından sonra dünyaya gələn gənclər əsas qüvvə olub.

*"Ön söz"*ün müəllifi II Qarabağ savaşı ilə bağlı düşüncələrini yazıya gətirərkən sözün möhnac olduğu vaxtın məhdudiyyətini də yada salır: *"Milli müstəqillik tariximizə Vətən müharibəsi adı ilə düşmüş 44 günlük II Qarabağ savaşı da öz ədəbiyyatına geniş qapı açdı. Bu tarixi qəhrəmanlıq mübarizəsi ilk günlərdən publisistika və poeziyada əks-səda verdi. Sonrakı aylarda nəsr hekayələrlə bu bədii prosesə qoşuldu. Tarixi ədəbiyyatdan və ədəbiyyat tarixindən bəlli olduğu kimi, cəmiyyətlərin həyatındakı inqilab, müharibə kimi katastrofaların bədii mənzərəsi irihəcmli nəsr əsərlərinə nisbətən gec gəlir. Bu mövzuda söhbət açan ədəbiyyatşünaslar, adətən, Rusiyanın 1812-ci il Vətən müharibəsindən 16 il sonra doğulmuş Lev Tolstoyun həmin mövzuda roman epopeyasını yarım əsr sonra yazmağa başladığını misal gətirirlər".* Doğru qənaətdir. Ümumiyyətlə, sənət aləmində hadisənin baş verdiyi vaxt və onun mahiyyəti söz adamının düşüncəsində kifayət qədər bişməsi üçün müddət vacib şərtdir. Təsadüfi deyil ki, müəllif Lev Tolstoyu xatırlayır. Və bundan sonra yazıçının yaradıcılıq yoluna nəzər yetirir.

Ümumiyyətlə, hər hansı bir əsər haqqında danışarkən oxucunun yaradıcılıq yolunu bilib-bilmədiyini nəzərə almadan məlumat tamlığını təmin etmək vacibdir. Görünür, elə bu səbəbdən də Tahir Aydınoğlu Ulduz Qasımın Azərbaycanın mənəvi mühitində vətəndaşlıq haqqı qazanmış əsərlərinin adını sadalamağı özünə borc bilir: *"Moskvada yaşayan istedadlı yazıçı-publisist Ulduz Qasımın Azərbaycanın 2021-ci ilin payızında Qarabağ uğrunda apardığı Vətən müharibəsi haqqında, həlalik ilk uşaqlarından tutmuş əsaya dayaqlanan qocayadək bütün xalqımızı əhatə edən yurdsevər, qələbə təşnəli insanlardır. Əlbəttə, aparıcı surətlər, silsilə qəhrəmanlar qüdrətli silahlı qüvvələrimizin sıravi əsgərdən tutmuş Ali Baş Komandanədək ayrı-ayrı təyinatlı və müxtəlif səviyyəli heyətləridir".* Əlbəttə, Azərbaycan ordusu *"Qarabağda qiyamət"* romanının əsas qəhrəmanıdır. Savaş meydanı Qarabağdır. Bütövlükdə Azərbaycan əzmidir döyüşən, amma hər halda ayrı-ayrı qəhrəmanlar var ki, onlar gələcək nəsillər üçün örnək olacaq və yaddan çıxmayan Qarabağ salnaməsinin ən şərəfli səhifələrində onlar kimliklərini xatırladacaqlar. Hər birimizə məlumdur ki, Qarabağ müharibəsinin 3 əsas qəhrəmanı var; əlbəttə, birinci qəhrəman Ali Baş Komandandır. Onun hərbi və siyasi istedadı, eyni zamanda güclü iradəsi, məqsədyönlü mübarizəsi qələbəni təmin edən birinci şərt idi. Ədalətlə desək, Ali Baş Komandan müharibə dövründə əvvəldən axıra qədər dünyada həqiqətlərimizin tərəfində olan və olmayan qüvvələrlə təmasda siyasi iradəsinin nəyə qadir olduğunu göstərdi.

İkinci əsas qüvvə, şübhəsiz, Azərbaycan ordusudur. Bu qüvvə dünya hərb ənənələrinə kifayət qədər sahiblənmiş, döyüş bacarığı kəsb etmişdi. Ona görə də müharibənin ölümdən daha betər fiziki əzablarını yaşamağı bacardı və axıra qədər öz gücünü göstərdi.

Üçüncü qüvvə bütövlükdə Azərbaycanın özüdür, Azərbaycan xalqıdır. 30 ildən çox işğalın əzab-əziyyətlərini yaşamış xalq vətənini azad görmək istəyirdi, ona görə də Ali Baş Komandanın ifadə etdiyi kimi dəmir yumruq olaraq birləşə bildi.

Bu gücün psixoloji tərəfini Tahir Aydınoğlu da "ön söz"ündə ifadə edib:

**Ə.R.XƏLƏFLİ**
**05.10.2022**